*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 aprel 2018-ci il № 30 (2246) Qiyməti 25 qəpik


# Vətənə, xalqa və dövlətə sədaqət andı

*Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin aprelin 18-də Milli Məclisdə təntənəli andiçmə mərasimi keçirilib. Xalqın dəstəyini böyük etimad kimi dəyərləndirən Prezident İlham Əliyev son 15 il ərzində Azərbaycanın nail olduğu iqtisadi, siyasi, sosial, demokratik inkişafdan, tolerantlıqdan söz açıb, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və ordu quruculuğu məsələsinə də toxunub.*



Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bildik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviyyədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır. Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir.

Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma "Dağlıq Qarabağ"ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma "referendum"u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir.

Bu gün Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.

Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir.

Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır.

Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq.

**"Azərbaycan Ordusu"**

# Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.*

AZƏRTAC xəbər verir ki, Valeri Gerasimov İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edildi, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin ev sahibliyi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlıq etdi.

Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirdi və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

# Prezident İlham Əliyev NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, Körtis Skaparotti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı NATO-Azərbaycan əməkdaşlığının uğurlu inkişafı müzakirə edildi.

Keçən ilin noyabrında NATO qərargahına səfər etdiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, səfər zamanı NATO-nun baş katibi ilə aparılan fikir mübadiləsi, Şimali Atlantika Şurasının iclasındakı çıxışı və oradakı müzakirələr bir daha Azərbaycan ilə NATO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərdi.

NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparotti öz tərəfindən NATO-Azərbaycan əməkdaşlığından razı olduğunu məmnunluqla bildirərək Azərbaycanın bu təşkilat üçün çox önəmli tərəfdaş ölkə olduğunu qeyd etdi. O, xüsusən Əfqanıstandakı sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu yüksək qiymətləndirərək bu əməliyyatlar üçün ölkəmizin tranzit və nəqliyyat imkanlarından istifadə edilməsinin önəmini vurğuladı.

Körtis Skaparotti Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşünə ölkəmizin ev sahibliyi etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bu görüş beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcək.

# Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində kurs keçirilib

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin təşkilatçılığı ilə ilk dəfə Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində NATO və tərəfdaş ölkələrin hərbi qulluqçuları üçün "ƏİK Məlumat Bazası" təlim kursu keçirilib.




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə 25 NATO-ya üzv və tərəfdaş ölkədən 60-dək nümayəndə iştirak edib.

Qeyd edək ki, Azərbaycan 2004-cü ildən ƏİK proqramına qoşulub. Ölkəmiz hazırda ƏİK Ortaq Qüvvələr Birliyinə bir tabor, bir kəşfiyyat bölüyü, HHQ-nin Mİ-17 helikopter cütlüyü və HDQ-nin Göyərtə Qrupunu bəyan edib.

# Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsi yaxşılaşdırılır

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Birdəfəlik ödəmə hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən veriləcək.

Birdəfəlik ödəmə həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar əvvəllər sığorta ödənişi verilməmiş, o cümlədən barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olmayan hərbi qulluqçuların vərəsələrinə verilir.

Fərmana əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti dövlət orqanları ilə birgə müəyyən edərək üç ay müddətində Maliyyə Nazirliyinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etməlidir.

Fərmanda deyilir ki, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi dövlətin ən ümdə vəzifələridir.

Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə şərait yaradıb. Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir. 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılıb, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilib və Qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılıb.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 18-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Mixail Olaru aparıblar.

# General-polkovnik Zakir Həsənov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşüb

*Aprelin 20-də Azərbaycan Respublikasının Müdafiə naziri vəzifəsini icra edən general-polkovnik Zakir Həsənov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı generalı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



General-polkovnik Z.Həsənov Şimali Atlantika Alyansı ilə hərbi əlaqələrin inkişaf etdiyini qeyd edərək Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq, o cümlədən Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyəti, Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına verilən töhfə haqqında ətraflı danışıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov bildirib ki, Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin müxtəlif xarici dövlətlərə, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinə səfərləri və həmin ölkələrdə onların qəbul edilməsi münaqişənin nizamlanmasında ikili standartların tətbiq edilməsinə gətirib çıxarır ki, bu da yolverilməzdir.

NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən general-polkovnik Z.Həsənov Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

General-polkovnik Z.Həsənov Ermənistandan nüvə komponentləri qaçaqmalçılığının həyata keçirildiyini qeyd edərək bunun təkcə regionun deyil, eyni zamanda daha geniş miqyasda təhlükəsizliyə ciddi təhdid təşkil etdiyini vurğulayıb.

Ölkəmizin sülhsevər siyasət yürütdüyünü və beynəlxalq terrorizmə qarşı daim mübarizə apardığını bildirən general-polkovnik Zakir Həsənov bəzi xarici ölkələr tərəfindən Azərbaycana silah satışına əsassız məhdudiyyət qoyulduğunu da qonağın diqqətinə çatdırıb.

Öz növbəsində general K.Skaparotti Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

Qonaq Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün Bakıda keçirilməsi üçün göstərilən qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin planlaşdırılması üzrə işçi görüşü keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 19-da Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku-2018" müsabiqəsinin planlaşdırılması üzrə işçi görüşü keçirilib.*

Azərbaycan, Rusiya, Qazaxıstan və İran nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müsabiqənin növbəti dəfə ölkəmizdə təşkilinin əhəmiyyəti vurğulanıb, hazırlıqla bağlı planlaşdırılan məsələlər, görüləcək işlər müzakirə edilib və yarışların keçirilməsi üçün hazırlanan infrastruktura baxış keçirilib.

# Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqi Azərbaycan əsgərini daha da ruhlandırıb

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqinin öyrənilməsi və təbliği ilə əlaqədar Azərbaycan Ordusunun bütün birlik, birləşmə, hərbi hissələrində, xüsusi təyinatlı təhsil müəssisələrində və digər hərbi kollektivlərdə silsilə tədbirlər həyata keçirilir.*





Gəncə Qarnizonundakı hərbi hissələrdən birində təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani aprelin 11-də keçirilən prezident seçkiləri, onun nəticələri və bu seçkilərdə cənab İlham Əliyevin qazandığı inamlı qələbə barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, builki seçkilərdə mülki vətəndaşlar kimi, milli təhlükəsizliyimizin qarantı olan Azərbaycan Ordusunun şəxsi heyəti də fəal iştirak edərək ulu öndər Heydər Əliyevin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin timsalında Azərbaycanın gələcəyinə, sabitliyə, təhlükəsizliyə, inkişafa və tərəqqiyə səs verib. Bu, həm də möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin növbəti böyük qələbəsidir.

Nəzərə çatdırılıb ki, son 15 il ərzində müasir Azərbaycan Respublikası cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadi, siyasi, mədəni, sosial həyatın bütün sahələrində, eləcə də ordu quruculuğunda möhtəşəm uğurlara imza atıb. Ordumuzun maddi-texniki bazası da daha da möhkəmləndirilib, yeni-yeni müasir hərbi texnikalar, silahlar və digər hərbi təyinatlı vasitələr alınıb, müdafiə sənayemiz inkişaf etdirilib, hərbi xidmət üçün ən müasir şərait yaradılıb.

Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu 2016-cı ilin aprelində böyük qələbə qazandı. Təsdiq olundu ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Vurğulanıb ki, cənab İlham Əliyevin seçkilərdən dərhal sonra Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən təntənədə xalqa müraciəti və andiçmə mərasimindəki nitqi bütün xalqımız kimi, Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusunu da daha böyük uğurlar qazanmağa ruhlandırır.

97 yaşlı Gəncə şəhər sakini, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov möhtərəm Prezidentimizin növbəti qələbəsinin şahidi olduğundan qürur hissi keçirdiyini deyərək bu gün də Ali Baş Komandanın Azərbaycan uğrunda əmrlərinə müntəzir olduğunu bəyan edib.

Azərbaycan Yazıçılar Birliyi Gəncə bölməsinin sədri Xəzəngül Hüseynova, şair Ramiz Təmkin yeni şeirlərini oxuyaraq Vətəni, ordunu tərənnüm edərək, mübariz əsgərlərimizi bundan sonra da Ali Baş Komandanın rəhbərliyi altında daha böyük qələbələrə səsləyiblər.

Azərbaycanın Xalq artisti Alim Məmmədov Gəncə şəhərinin timsalında respublikamızın bütün regionlarının inkişafı barədə danışıb. Bildirib ki, son 15 il ərzində cənab İlham Əliyev 17 dəfə qədim və günü-gündən yeniləşən Gəncəyə səfər edib. Hər bir səfər yeni təməlqoyma mərasimləri, təntənəli açılışlar və unudulmaz görüşlərlə yaddaşlara həkk olunub.

Xalq artisti əminliklə bildirib ki, Azərbaycan Ordusu yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin Ali Baş Komandanlığı və onun qətiyyəti, prinsipiallığı sayəsində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həll edəcəkdir.

Hərbi qulluqçulardan Vüqar Quliyev, İsmayıl Beydullayev, Qismət Babayev və başqaları çıxış edərək cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqindən daha da ruhlandıqlarını, Ali Baş Komandanın torpaqlarımızı işğaldan azad etmək üçün əmrini gözlədiklərini bildiriblər.

Tədbirin sonunda Gəncə Qarnizonu Zabitlər Evinin səyyar təşviqat dəstəsi "Əmrinə hazırıq, Ali Baş Komandanım!" ədəbi-musiqili kompozisiyasını təqdim edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Birləşmə və hissələrin qərargah və bölmələri ilə komanda-qərargah təlimi keçirilir



*Bu ilin hazırlıq planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Ordunun bir neçə birləşmə və hissələrinin qərargah və bölmələrinin cəlb edilməsi ilə komanda-qərargah təlimi keçirilir.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, təlim çərçivəsində qoşunların döyüşə hazırlığının yoxlanılması məqsədilə birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb. Burada idarəetmə sistemləri vasitəsilə qoşunların idarə olunması praktiki həyata keçirilir.



Zabitlərin və qərargahların komanda-qərargah təlimində iştirakının yüksək səviyyədə təşkil edilməsi məqsədilə Təlim-Tədris Mərkəzinin Simulyasiya Mərkəzində qarşıda duran tapşırıqların kompüter üzərində məşqi icra edilərək, fəaliyyətlərin nəticələri təhlil olunacaq.

Komanda-qərargah təlimi aprelin 22-dək davam edəcək.

## Pakistan Milli Müdafiə Universiteti nümayəndə heyətinin ölkəmizə səfəri davam edir

Azərbaycanda səfərdə olan Pakistan Milli Müdafiə Universitetinin nümayəndə heyəti Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi və Silahlı Qüvvələrin Hərbi Akademiyasında olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar beynəlxalq hərbi əməkdaşlıq və hərbi təhsil sahəsində həyata keçirilən fəaliyyətlər və əldə olunan nəticələr barədə ətraflı məlumatlandırılıb.

Qeyd edək ki, səfər çərçivəsində Pakistan nümayəndə heyəti bir sıra nazirliklər, dövlət xidmətləri, agentlik və universitetlərdə görüşlər keçirib.

## Azərbaycan nümayəndə heyəti MDB Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclasında iştirak edib

Azərbaycan Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini - Əməliyyat Baş İdarəsinin rəisi general-mayor Ayaz Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin aprelin 20-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən növbəti iclasında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda nümayəndə heyətlərinin rəhbərləri müdafiə sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**20 aprel 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 96 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Aşağı Əskipara, Qızılhacılı, Cəfərli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# "Qələbə günümüz üçün xidmət edirik"



*Dağları ucalıq kimi qəbul edən insanlar yaranan gündən daim ucalığa, zirvəyə can atıblar. Dağlar hər zaman xalqımızın ucalıq mənbəyi, qeyrət simvolu qəbul edilib. Xalq gücü, qüvvəti, saflığı, mərdliyi, igidliyi, dözümlülüyü, vüqarlılığı bu mənbədən alır.*

Tarixən düşmənlərin hücumlarının qarşısını almaq üçün oğullarımız dağlara üz tutub, dağlara sığınıb, kürək-kürəyə söykənərək düşməni məhv ediblər. Dağları sığınacaq bilən igidlərimiz torpaqlarımıza göz dikən düşmənlərin niyyətlərini gözlərində qoyublar.

Belə oğullarımızdan biri ilə - əsgər Amid Məmmədovla Vətənimizin şahinli, donqarlı zirvəsində, dağlar qoynunda görüşürük.

Əsgər Amid Məmmədov söhbət zamanı bildirir ki, üzərinə düşən ümdə vəzifə Vətəni, torpağı qorumaqdı. "Son dərəcə ekstremal və təhlükəli mövqedə xidmət apardığımızdan fiziki cəhətdən hazırlıqlı olmağımız vacib şərtlərdəndir. Fiziki və mənəvi cəhətdən güclü olmalıyıq. Biz burada düşmənin fəaliyyətinə nəzarət edir, onların komanda-müşahidə məntəqələrini, texniki manevrlərini müşahidə edirik".

- Hansı peşənin sahibi olursansa-ol, təcrübə, səriştə həmişə insanın köməyinə gəlir, - Amid deyir. - Hərbi xidmətdə də belədir. Şəxsi heyətə məşğələlər, dərslər keçərkən həm təhsil illərində qazandığım bilik və səriştə, həm də hərbi xidmətdə əldə etdiyim təcrübələr hər addımda köməyimə gəlir. Keçdiyimiz təlim-məşqlərin əhəmiyyəti danılmazdır. Xidmətə gəldiyim birinci günlə bu günün arasında dağlar qədər fərq var. Bütün bunlar savadlı və bacarıqlı zabitlərimizin sayəsində mümkün olub. Onlar hər zaman bizə izah edirlər ki, məhz yüksək hazırlıqlı əsgər döyüşdə düşməni məhv etməyə və qələbə qazanmağa qadirdi. Ən böyük arzumuzun həyata keçməsi, bayrağımızın işğal altında olan torpaqlarımızda dalğalanması üçün üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməliyik.

Bu gün mən həm də övlad atasıyam. Ona görə də özümdə məsuliyyət hiss edirəm - həm əsgər kimi, həm də ata kimi. Bu gün müharibə hələ bitməyib, torpaqlarımızı erməni qəsbkarlarından geri alacağıq. Şəhidlərimizin qanı tökülmüş bu torpaqları azad edib, düşmənin Vətənimizə, torpağımıza bir daha göz dikməsinə imkan verməyəcəyik. Bir gün mən də Azərbaycan Ordusunun qalib əsgəri kimi qürurla deyəcəm ki, üzərimə düşən vəzifəni layiqincə yerinə yetirə bildim. O günün həsrətilə yaşayıram.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

*Qlobal və regional miqyasda geosiyasi mənzərənin sürətlə dəyişdiyi bir vaxtda hərbi təhlükəsizliyin qorunması, xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar çərçivəsində tərəfdaşlıq münasibətlərinin qurulması suverenliyin təminatına çevrilir.*



Bu gün Müdafiə Nazirliyi rəhbərliyinin qarşısında duran əsas məsələ milli maraqlar ilə müasir geosiyasi vəziyyətin xüsusiyyətlərini maksimum dərəcədə nəzərə alaraq beynəlxalq hərbi əməkdaşlıq fəaliyyətini genişləndirməkdir. Beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsində əsas məqsəd dövlətimizin strateji maraqlarına uyğun olaraq ikitərəfli, üçtərəfli və beynəlxalq təşkilatlar çərçivəsində hərbi əməkdaşlığı inkişaf etdirməkdən və bu əməkdaşlıq sayəsində Azərbaycan Ordusunun inkişafına, modernləşməsinə və döyüş qabiliyyətinin yüksəldilməsinə nail olmaqdan ibarətdir.

Bütün bunları nəzərə alaraq, Müdafiə Nazirliyi beynəlxalq əməkdaşlıq və qazanılmış təcrübədən qarşılıqlı istifadə nəticəsində Azərbaycan Ordusunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, müasir hərbi texnika və silahlarla təchizi məsələsində region və digər dövlətlərlə münasibətləri prioritet məsələ kimi diqqətdə saxlayır. Bunu nəzərə alaraq, Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına öz töhfəsini verir. Bu baxımdan Azərbaycanın NATO ilə əməkdaşlığı, beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfə və sülhməramlı əməliyyatlarda peşəkarlığı xüsusilə qeyd edilməlidir. Hazırda Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Həmid Kərzai adına Kabul beynəlxalq hava limanının təhlükəsizliyinin təmin edilməsində yaxından iştirak edir. Onu da qeyd edək ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti Əfqanıstandakı missiyada iştirak edir. NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun sülhməramlıları plana uyğun olaraq, rotasiya qaydasında üç aydan bir dəyişdirilir. Həyata keçirilən "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Azərbaycan Ordusunun 52 nəfər sülhməramlısı aprelin 3-də Əfqanıstana yola salınmışdı.

Bu günlərdə isə NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun 50 nəfərdən ibarət qrupu rotasiya qaydasında Bakıya qayıdıb.

**"Azərbaycan Ordusu"**

# Hərbi lisey: zabit kadrları hazırlığının ilkin mərhələsi

## C.Naxçıvanski adına Hərbi Liseyin yaranmasının 47-ci ildönümü qeyd edilib





*Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yarandığı gündən 47 il keçir. 47 il əvvəl - 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə hərbi təhsil ocağı yaradıldı. Ötən illər ərzində hərbi təhsil ocağını yüzlərlə, minlərlə azərbaycanlı gənc bitirərək ali hərbi məktəblərə daxil oldular. Azərbaycan Ordusunun formalaşmasında hərbi məktəbi bitirənlərin müstəsna xidmətləri olub. Hazırda ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti bu təhsil ocağının məzunudur. Onlar Qarabağ müharibəsində də böyük hünər və rəşadət göstərərək adlarını qəhrəmanlıq tarixinin səhifələrinə böyük hərflərlə yazdılar.*

Təhsil ocağının ildönümləri ənənəvi olaraq böyük təntənə və yaddaqalan tədbirlərlə qeyd edilir. Hərbi liseyin 47-ci ildönümü də yaddaqalan oldu. İlk olaraq şəxsi heyətin əlamətdar gün münasibətilə sıra meydanında düzüldüyü barədə C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılova məlumat verildi. Təhsil ocağının rəhbəri şəxsi heyətlə salamlaşdı, zabit və kursantları əlamətdar gün münasibəti ilə təbrik edərək onlara həm xidmətlərində, həm də təhsillərində uğurlar arzuladı.

Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Nümunəvi orkestrin ifa etdiyi hərbi marşın sədaları altında Hərbi liseyin döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi. C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi təhsil ocağının şəxsi heyətinə ünvanladığı təbrik məktubunu oxudu: "Cənab zabitlər, gizirlər, kursantlar, çavuşlar və əsgərlər! Hörmətli müəllim heyəti! Sizi liseyin yaranmasının ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçmişdir. Əcdadlarımızın hərbi ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu Ümummilli Liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müdafiə qüdrətinin artırılmasında böyük uğurlar qazanmışdır.

İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcək, keçirilən dərslərdə səmərəli fəaliyyətinizlə peşəkar zabit olmaq arzusu ilə liseyə daxil olmuş gənclərdə hərb sənətinə, zəngin tariximizə dərin hörmət hissi tərbiyə etmək, kursantlara hərtərəfli ibtidai hərbi biliklər vermək naminə səylərinizi daha da artıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni-yeni uğurlar arzulayıram."

Hərbi liseyin baş metodisti Laləzar Həsənova tədrisdə görülən işlərdən, qazanılan uğurlardan ətraflı danışdı. Kursantlar adından çıxış edən kursant Anar Sadıqov Hərbi liseydə oxuduqlarından qürur duyduqlarını və onlara bilik öyrədən müəllimlərə, həmçinin təhsil ocağının rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Çıxış və təbriklər başa çatdıqdan sonra C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılovun təhsil ocağının 47-ci ildönümü münasibətilə şəxsi heyəti mükafatlandırması haqqında əmri oxundu. Təhsil ocağının rəhbəri tədrisdə, xidmətdə, qulluqda və ictimai işlərdə fəallıq göstərib fərqlənən bir qrup müəllimə və kursantlara fəxri fərmanlar, qiymətli hədiyyələr və pul mükafatları təqdim etdi. Hərbi liseydə Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə həsr olunmuş idman yarışlarının qalibləri olan kursantara da fəxri fərman və keçici kubok verildi.

C.Naxçıvanski adına Hərbi Liseyin 47-ci ildönümünə həsr olunan mərasimin rəsmi hissəsi zabit və kursantların təntənəli marşla tribunanın önündən keçməsi ilə başa çatdı.

Tədbirdə Hazi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi maraqlı konsert proqramı ilə şəxsi heyət qarşısında çıxış etdi. Müğənnilər hərbi vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Milli Qəhrəmanlarımız*

# "Şəhidlər bəşərilik yolunu işıqlandırır"






*Vətən varlığımız, qürurumuzdur. Vətənin azadlığı, istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, ölümləri ilə ölümsüzlüyə qovuşur, İsgəndər Aznaurov kimi...*

Vətənə böyük sevgiləri olan belə qəhrəmanların ömür yolu gənclərin vətənpərvərlik ruhunun formalaşmasında müstəsna rol oynayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Sizin qəhrəmanlığınız bu gün həyata atılan, orduda xidmətə gedən və hərbi xidmətə hazırlaşan gənclər üçün örnəkdir, nümunədir. Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş Azərbaycanın Milli qəhrəmanlarının həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, o cümlədən, xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir".

Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara vilayətinin Qala-Asiya kəndində dünyaya gəlib. 1963-1973-cü illərdə Daşkənd vilayətinin Akkurqan rayonunda yerləşən Lomonosov adına 1 nömrəli orta məktəbdə təhsil alıb. 1975-1977-ci illərdə Ukraynanın Çerkassk şəhərində hərbi xidmətdə olub. O, nümunəvi xidmətinə görə dəfələrlə komandanlığın təşəkkürlərinə və fəxri fərmanlarına layiq görülüb. Daşkənd Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və İrriqasiya Mühəndisləri İnstitutunun məzunu olan İsgəndər təyinatla Daşkənd vilayətinin Akkurqan rayonu Qalyakudur sovxozuna göndərilib. 1989-cu ildə Özbəkistanın Fərqanə vadisində baş verən məlum olaylardan sonra İsgəndər də yüzminlərlə axıska türkü kimi oranı tərk etməyə məcbur olub. 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycana gəlib, Şəmkirin Kür qəsəbəsində məskunlaşıb...

Erməni işğalçılarının torpaqlarımıza basqını İsgəndəri rahat buraxmırdı...

21 aprel 1992-ci il... İsgəndər Milli Ordu sıralarına könüllü yazılır. "N" hərbi hissəsinin artilleriya üzrə komandir müavini təyin edilir. Gədəbəy rayonunun Şınıx bölgəsində düşmənin mühüm hərbi bazalarının məhv edilməsində şəxsi nümunə göstərir.

18 aprel 1993-cü ildə İsgəndər Aznaurov döyüşdə qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə göstərdiyi şəxsi igidlik və şücaətə görə baş leytenant Aznaurov İsgəndər Söhrab oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Şəmkir rayonunun Kür qəsəbəsindəki 1 nömrəli orta məktəb onun adını daşıyır. Kür çılğın çaydır. İsgəndərin Vətən sevgisini Kürün çılğınlığına bənzətmək istərdim...

Məktəbin qarşısında büstü ucaldılıb. 2 nömrəli orta məktəbdə onun adına "Xatirə muzeyi" yaradılıb. Burada qəhrəmanın həyatını, keçdiyi döyüş yolunu əks etdirən foto-stendlər qurulub, şəxsi əşyaları toplanıb. Şəmkir rayonunda Çeyrançöldə salınmış qəsəbəyə "İsgəndər" adı verilib. Gədəbəydə "N" hərbi hissəsinin önündə də büstü ucaldılıb, Şınıx kəndinin Mormor yüksəkliyində "İsgəndər qalası" və ön xətdə "İsgəndər postu" düşmən üçün bir səddir. İsgəndərin istifadə etdiyi top nümunə olaraq saxlanılır. Qələbədən sonra da saxlanılacaq - müharibə tarixinin eksponatı kimi...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun anım günü keçirilib. Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları və Azərbaycan Ali Hərbi Məktəbinin rəhbərliyi, kursantlar iştirak edirdi.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən polkovnik Rəhim Səmədov Milli Qəhrəmanın həyat və döyüş yolu haqqında geniş məlumat verərək bildirdi ki, Ulu Öndərin adını daşıyan təhsil ocağında gənclərimizə nümunə olacaq bir qəhrəmanın ömür yoluna nəzər salmaq qürurverici hadisədir. Vətənimizin müdafiəsi, torpaqlarımızın qorunması uğrunda canından keçərək müqəddəs zirvəyə ucalan oğullarımızla həmişə fəxr edirik. Azərbaycanın üçrəngli bayrağı dalğalandıqca onlar daim bizim xatirələrimizdə, qəlbimizdə yaşayacaqlar. Qəhrəmanlarımızın qısa, amma şərəfli ömür yolu gənclərimizə örnəkdir.

Qohumu Məhəmməd Şamilov qorxubilməz, səmimi insan olan Milli Qəhrəmanla bağlı xatirələrini danışdı və İsgəndərə verilən dəyərə görə bütün axıska türkləri adından ölkə rəhbərliyinə minnətdarlığını bildirdi. "Şəhidlər bəşəriyyət ocağında bir şamdır. Onlar yanaraq bəşəriyyətin düz yolunu işıqlandırırlar".

"İsgəndərin sorağında" adlı sənədli filmin ssenari müəllifi və rejissoru Nizami Abbas çıxışında cəsur qəhrəmanla hələ sağlığında tanış olduğunu bildirdi. "Bu mənim üçün şərəfdir. Bəzən düşünürəm, görən şəhidlərimizlə aramızda nə qədər məsafə var. Məncə, böyük məsafə yoxdur. Sadəcə, bu addım atılmalıdır. İsgəndərə doğru, bütün şəhidlərimizə doğru, Qarabağa doğru bu addımı atmalıyıq. Qələbəni tezləşdirmək üçün atmalıyıq. Bu film məhz bu arzuyla, bu istəklə çəkilib. İnanıram ki, çox yaxında Qələbə ilə bağlı filmlər çəkəcəyik".

Şəhidin komandiri, ehtiyatda olan polkovnik-leytenant İlham Əliyev İsgəndərin keçdiyi döyüş yoluna nəzər saldı, onun çalışqan, bacarıqlı, öz üzərində işləyən zabit olduğunu xatırlayaraq qeyd etdi ki, Aznaurov ixtisasca topçu olmasa da, tez bir zamanda artilleriyanın sirlərinə yiyələndi. "Topçu İsgəndər" kimi tanınan cəsur döyüşçü Başkəndin erməni quldurlarından təmizlənməsində, "Mutudərə", "Ərdağı", "Kaftar qayası", "Ləzgi daşı" əməliyyatlarında düşmənin xeyli texnikasını, canlı qüvvəsini məhv etdi.

Döyüş xatirələrini tədbir iştirakçıları ilə bölüşən ehtiyatda olan polkovnik-leytenant üzünü kursantlara tutaraq dedi: "Silah və texnikanın sirlərinə dərindən yiyələnin, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın verəcəyi bütün əmrlərə siz də, biz də hazır olmalıyıq".

Azərbaycan Ali Hərbi Məktəbin zabiti polkovnik Mirqiyas Rüstəmov, müəllimlərdən Yaqub Məmmədov, Azadə Bağırova Milli Qəhrəmanın şərəfli ömür yoluna nəzər salaraq bildirdilər ki, İsgəndər bizim də qəlbimizdədir, yaddaşlardan çıxmayıb, çıxmayacaq.

Sonda Milli Qəhrəmanın həyat və döyüş yolundan bəhs edən "İsgəndərin sorağında" sənədli filmi hamımıza bir həqiqəti yenidən yaşatdı: Vətəni, torpağı candan əziz bilənlər dünyada əbədi bir nəğmə kimi qalır. İsgəndər Aznaurov kimi...

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# "Əsgərə məktub" layihəsi çərçivəsində növbəti tədbir Tərtər rayonunda keçirilib

*"Vətən uğrunda" səyyar təşviqat dəstəsi cəbhənin ön xəttində xidmət keçən hərbi qulluqçuların ruh yüksəkliyini daha da artırmaq məqsədilə "Əsgərə məktub" layihəsini Azərbaycanın müxtəlif regionlarında davam etdirir.*




Növbəti kütləvi vətənpərvərlik tədbiri Tərtər rayonu İcra Hakimiyyətinin və Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Tərtər rayonunda keçirilib.

İctimaiyyətlə ordumuz arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edən layihə çərçivəsində görülən işlər və həyata keçirilən fəaliyyətlər barədə videoçarx nümayiş etdirilib. Çıxış edənlər layihənin əhəmiyyətini vurğulayaraq bildiriblər ki, bu cür tədbirlərin keçirilməsinin məqsədi Vətəni qorumağa hər an hazır olan vətənsevər gəncləri yetişdirmək, onlarda milli və hərbi vətənpərvərlik ruhunu gücləndirməkdir.

Sonra Tərtər rayon ictimaiyyəti, valideynlər, müharibə veteranları videogörüntü vasitəsilə və yazılı şəkildə Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərimizə xoş arzularını çatdırıb və onlara daim dəstək olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Raket və artilleriya bölmələrinin taktiki təlimləri keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, müxtəlif təlim mərkəzlərində Raket və Artilleriya Qoşunlarının taktiki təlimləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bölmələrin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlərdə döyüş atışları icra olunub.

Şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Topogeodeziya taktiki-xüsusi təlimi keçirilib

Müdafiə Nazirliyi tabeliyində olan hərbi hissədə desantçıxarma əməliyyatlarının naviqasiya-hidroqrafik, hidrometeoroloji və topogeodeziya təminatı mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə tədqiqat qruplarının formalaşdırılması, əməliyyat keçiriləcək əraziyə çıxışı və desantçıxarma əməliyyatlarının keçiriləcəyi ərazilərdə dərinlikölçmə və geodeziya ölçmələri icra edilib.

Hərbi hissə komandanlığı təlimlərdə iştirak edən şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.

AZƏRBAYCAN ORDUSU
7
21 aprel 2018-ci il

# Hərbi Dəniz Qüvvələrində "ən yaxşı ictimai-siyasi qrup rəhbərləri"nin müəyyən edilməsi məqsədilə müsabiqə keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2018-ci il üçün təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrində "Ən yaxşı ictimai-siyasi qrup rəhbərləri"nin müəyyən edilməsi məqsədilə müsabiqə keçirilib.*



"Ən yaxşı ictimai-siyasi qrup rəhbəri" müsabiqəsinin keçirilməsinin əsas məqsədi şəxsi heyətin Vətənə məhəbbət, xalqına, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasında başlıca rol oynayan komandirlərin şəxsi heyətlə iş üzrə müavinlərinin bilik və bacarıqlarını yoxlamaqdır.

Müsabiqə zamanı qrup rəhbərlərinin nəzəri bilikləri, eləcə də ictimai-siyasi dərslərin keçirilməsi üçün praktiki vərdişləri yoxlanılıb. Zabitlərin dərs prosesi zamanı tabeliklərində olan şəxsi heyəti idarəetmə bacarıqları da qiymətləndirilib.

Videogörüntülərlə və əyani materiallarla təmin edilən ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri yoxlanılan suallar üzrə bilik və bacarıqlarını nümayiş etdirərək yaxşı qiymətlər alıblar.

Yarışların nəticələri obyektiv qiymətləndirilərək müəyyən edilmiş qaliblər mükafatlandırılmaları üçün yuxarı komandanlığa təqdim ediləcək.

**"Azərbaycan Ordusu"**

*Bu günlərdə Nizami Kino Mərkəzində Qarabağ müharibəsi veteranı, hərbi həkim, ehtiyatda olan tibb xidməti kapitanı İmran Qurbanova həsr olunmuş "Dönüş" sənədli filminin təqdimatı keçirildi. Keçmiş döyüşçülərin, qazilərin, millət vəkillərinin və digər qonaqların iştirak etdiyi təqdimat mərasimini açıq elan edən ehtiyatda olan mayor Şəmistan Əlizamanlı İmran həkimlə müharibə illərinin dostu olduğunu və bu illərdə onu Vətənə, torpağa, elinə, obasına bağlı insan kimi tanıdığını vurğuladı. O, Qarabağ müharibəsinin ilk illərində tibb heyətinin çatışmadığı bir dönəmdə könüllü olaraq orduda xidmətə başlayan İmranın fədakarlığından, qorxmazlığından, döyüşən briqadada ən çətin şəraitdə ilk səhra hospitalını yaratmasından, döyüş meydanından çıxarılan neçə-neçə ağır yaralıya həyat bəxş etməsindən danışdı.*

*Tarixin yaddaşı*

# "Doğma torpaqlarımıza qayıdacağıq"

Haşiyə: İmran Qurbanov Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində dünyaya gəlib. Elmə, təhsilə hələ kiçik yaşlarından böyük marağı olub. Orta məktəbi əla qiymətlərlə başa vuran İmran ən çox sevdiyi həkimlik peşəsini seçir. Onun ilk cəhdi uğursuz alınır. Hərbi xidmətə yollanır. Hərbi xidmətdən sonra İmran ən yüksək göstəriciylə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olur. Oxuduğu illərdə həkimlik sənətinin sirlərinə dərindən yiyələnir. Bu o dövrlər idi ki, artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlamış və erməni təcavüzkarları tərəfindən Qərbi Azərbaycandan 200 mindən artıq soydaşımız öz qədim ata-baba yurdundan didərgin salınmışdı. Çətin günlər idi... Hər gün ermənilərlə sərhəd olan bölgələrimizdən ağır xəbərlər alırdıq.




Bir gün İmran televiziyadan eşidir ki, cəbhədə yaralılara yardım edəcək həkim və tibb heyətinə böyük ehtiyac var. Bu xəbəri eşidən İmran könüllü olaraq yenicə formalaşmaqda olan ordu sıralarına yazılır. Salyan kazarmasında Sovet ordusunun yararsız tibbi avadanlığı ilə tökülüb qalaqlanmış taborunu qəbul edir. Beləliklə, İmran da yüzlərlə Vətən oğlu kimi ağır döyüşlərə atılır. Əlində silah döyüşməsə də, əynində ağ xalat ən ağır cəbhələrdə döyüş yolu keçir, İmran. Kəlbəcərdə, Ağdərədə, Zəngilanda, Cəbrayılda, nəhayət, Murovda, Toğanada Vətənə övladlıq borcunu ləyaqətlə yerinə yetirir.

Tədbirdə çıxış edən filmin ssenari müəllifi Orxan Fikrətoğlu özünü bu zalda Vətənin qürurlu bir əsgəri kimi hiss etdiyini vurğulayaraq İmran həkimin keçdiyi şərəfli döyüş yolunun müasir gəncliyə, xüsusilə gənc həkimlərə örnək olduğunu bildirdi. O eyni zamanda qeyd etdi ki, Vətənin dar gündə canından keçməyə hazır olan Qarabağ veteranlarının, keçmiş döyüşçülərin, qazilərin hər birinin keçdiyi döyüş yolu gənclərimizə nümunə olmalıdır. "Ona görə də belə sənədli filmlərin araya-ərsəyə gəlməsinə çalışmalıyıq. Çünki burada əks olunan hər bir epizod vətənpərvərliyi, torpaqsevərliyi və qəhrəmanlığı təcəssüm etdirir."

Təqdimat mərasimi filmin ideya müəllifi Rüstəm Dastanoğlunun, rejissor Rüfət Əsədovun çıxışları ilə davam etdi.

Sonra Qarabağ müharibəsi veteranı, hərbi həkim İmran Qurbanov filmin yaradıcı heyətinə minnətdarlığını bildirdi. O, keçdiyi Qarabağ müharibəsinin ağrılı-acılı günlərini, ordumuzun çətin müharibə şəraitində formalaşdığı vaxtları xatırlayaraq, bugünkü Azərbaycan Ordusunun yüksək təminatından, artıq qüdrətli bir hərbi qüvvəyə çevrilməsindən danışdı. Çıxışının sonunda əminliklə bildirdi ki, Ali Baş Komandanın döyüş, səfərbərlik əmrinə həmişə hazıram. "Azərbaycan Ordusu düşmənin qüvvəsini tez bir zamanda darmadağın edib, torpaqlarımızı geri almağa qadirdir. Bunu aprel döyüşləri bir daha göstərdi. Biz doğma torpaqlarımıza qayıdacağıq. Mütləq qayıdacağıq."

Təqdimat mərasimi "Dönüş" sənədli filminin nümayişi ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə və Qətərin Hərbi Hava Qüvvələri birgə təlim keçirəcəklər



Türkiyə Respublikası ilə Qətər Dövlətinin Hərbi Hava Qüvvələri birgə hərbi təlimlər keçirəcəklər.

Qətər ərazisində keçirilməsi planlaşdırılan "Şahin-20" təlimləri aprelin 22-dən 29-dək davam edəcək. Uçuşlara "F-16" döyüş təyyarələri də cəlb olunacaq.

### Misir ordusu Sinayda terrorçu təşkilatın başçısını məhv edib



Misir silahlı qüvvələri Sinay yarımadasının mərkəzində fəaliyyət göstərən terrorçu təşkilatın başçısı Naser Abu Zakulu məhv edib.

Təhlükəli terrorist hərbçilərlə atışma nəticəsində öldürülüb. Bəyanatda qeyd olunur ki, Misir ordusu bundan sonra da Sinayın mərkəzində fəaliyyət göstərən terrorçuları və ekstremistləri məhv etmək üçün səylərini davam etdirəcək.

### Qətər ABŞ-dan 2,5 milyard dollarlıq hava hücumundan müdafiə sistemləri alacaq



Qətərin Müdafiə Nazirliyi Amerika istehsalı olan hava hücumundan müdafiə sistemlərinin satın alınması ilə bağlı ABŞ-la müqavilə bağlayıb.

Hava hücumundan müdafiə sisteminin istehsalçısı "Raytheon" kompaniyası ilə müqavilə əmirliyin müdafiə üzrə dövlət naziri Xalid bin Məhəmməd əl-Atıyın Vaşinqtona səfəri zamanı imzalanıb. Müqavilənin detalları açıqlanmır. Qətərin dövlət naziri aprelin 18-də Pentaqonun rəhbəri Ceyms Mettislə danışıqlar aparıb və Suriyadakı vəziyyəti müzakirə edib.

Qeyd edək ki, müdafiə nazirlərinin görüşü Vaşinqtonun Suriyada keçirilən əməliyyatlara ərəb ölkələrini və o cümlədən Qətəri cəlb etmək planları barədə xəbərlər fonunda baş tutub. Bir qədər əvvəl, aprelin 17-də Səudiyyə Ərəbistanının xarici işlər naziri Adil əl-Cübeyr ərəb ölkələrinin hərbi kontingentinin Suriyaya göndərilməsinin mümkünlüyünü bildirmişdi.

### İranın dörd sərhədçisi terrorçularla silahlı toqquşmada həlak olub



İranın Pakistanla sərhədində baş verən silahlı toqquşmada dörd iranlı sərhədçi həlak olub.

Bu barədə Sistan və Bəlucistan Sərhəd Qoşunları Komandanlığının mətbuat katibi Əbülhəsən Ziyayi məlumat verib. Məlumatda bildirilir ki, Pakistan ərazisində bir sıra terror aktları törədən terrorçular polisin təqibindən yaxa qurtarmaq üçün İran ərazisinə keçməyə cəhd ediblər. Lakin İran sərhədini silahla və qanunsuz keçməyə çalışan terrorçular sərhədçilərin müqavimətinə rast gəliblər və silahlı toqquşma baş verib. Nəticədə öz xidməti borcunu yerinə yetirən dörd iranlı sərhədçi şəhid olub.

### Ukrayna tank əleyhinə raket kompleksinin yenilənmiş variantını təqdim edib



Ukrayna istehsal etdiyi tank əleyhinə "Skif" raket kompleksinin yenilənmiş variantını ictimaiyyətə təqdim edib. Artıq Ukraynanın hərbi poliqonlarının birində raket kompleksi uğurla sınaqdan keçib. "Skif" raket kompleksinin ekspert variantı "Stuqna-P" adlanacaq. "Skif" hərəkətdə olan və olmayan müasir hədəfləri, o cümlədən zirehli hədəfləri məhvetmə gücünə qadirdir. Bundan başqa, raket kompleksi kiçik hədəfləri, yüngül zirehli obyektləri və helikopterləri məhvetmə gücünə malikdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Şahin" hərbi idman oyunları keçirildi



Bu günlərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Xətai rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Şahin" hərbi idman oyunlarının rayon mərhələsi keçirildi.

Açılışdan əvvəl qonaqlar, tədbir iştirakçıları və məktəblilərin bir qrupu ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Ali Hərbi Məktəbin həyatındakı abidəsini ziyarət edib önünə qızılgül dəstələri qoydular. Sonra ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin rəisi general-mayor Füzuli Salahov gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkilinin böyük aktuallıq kəsb etdiyini qeyd etdi və iştirakçılara uğurlar arzuladı.

Xətai rayon İcra Hakimiyyəti başçısının müavini Jalə Abdıyeva "Şahin" hərbi idman oyunlarının əhəmiyyətindən danışaraq bildirdi ki, bu oyunlar gənclərdə sağlam həyat tərzinin formalaşmasında və onlara hərbi vətənpərvərlik hissinin aşılanmasında çox mühüm rol oynayır: "Bu gün burada iştirak edən yüzlərlə gənc sabah xalqın və dövlətin əsas dayağı olan Azərbaycan Ordusunun əsgəri və zabiti olacaq. "Şahin" hərbi idman oyunları gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsi, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsi baxımından xüsusi önəm daşıyır. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan gənclərinin vətənpərvərlik ruhu və əzmi sarsılmazdır".

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov isə bildirdi ki, ölkəmizdə sabitlik və inkişafın qarantı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşmək hər bir Azərbaycan gənci üçün həm vətəndaşlıq borcu, həm də mənəvi vəzifədir. İdarə rəisi çağdaş dövrdə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsindən söz açaraq, gənc "şahinlərə" qələbə uğrunda əzmlə mübarizə aparmalarını dilədi. "Gənclik hər bir millətin inkişafının təməl daşıdır" deyən natiq, millətin mövcudluğu üçün sağlam gəncliyin olmasının vacib şərt olmasını qeyd etdi: "Bu gün ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial gənclərin yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır".



Xətai rayonu üzrə 37 məktəbdən 600 şagirdin iştirakı ilə keçirilən yarışlara "Sıra hazırlığı" mərhələsi ilə start verildi. İlk olaraq hər komanda tam tərkibdə sıraya düzüldü. Komanda kapitanlarının göstərişinə əsasən, bir cərgədən iki cərgəyə və əksinə düzülmə, yerində hərəkət zamanı dönmələr, dağılma və digər komandalar icra olundu. Bu mərhələnin sonunda sıra addımı və mahnı ilə hakimlər heyətinin qarşısından təntənəli keçid oldu.

"Darağa patron doldurulması və boşaldılması", "Avtomatın sökülməsi və yığılması", "Komanda qərargah çadırının qurulması və maskalanması", "Fiziki hazırlıq" və "Mülki Müdafiə Hazırlığı" mərhələləri ilə tanış olarkən məktəblilərin bu yarışlara böyük həvəslə və çox ciddi şəkildə hazırlaşmaları açıq hiss olunurdu.

Yarışların ən maraqlı hissəsi qalib komandanın elan olunduğu an oldu. Qaydalara görə həmin komanda Bakı şəhəri üzrə keçiriləcək "Şahin" hərbi idman oyunlarının final mərhələsinə vəsiqə qazanacaqdı. Yekun nəticələrə əsasən, 263 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərə qalib gələrək birinci yerə layiq görüldü. 59 və 191 nömrəli tam orta məktəbin komandaları müvafiq olaraq ikinci və üçüncü oldular.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Əsgər məktubu



Salam ata, necəsən? Anam necədi? Mən yaxşıyam, xidmətim də uğurla davam edir. Artıq bir ildən çoxdur ki, sizlərdən uzaqda xidmətdəyəm. Lakin bircə gün də özümü yad yerdə hiss etməmişəm. Yadındadırsa, sən həmişə deyərdin ki, sərhədlərimiz daxilində hər qarış torpağımız Vətəndir. Vətən isə anamız, müqəddəs qibləgahımızdır. Bu gün vətəndaşlıq borcumu yerinə yetirir, qibləgahımız, səcdəgahımız olan ana Vətənə qürurla xidmət edirəm. Düzdü, arada sizlər üçün darıxıram. Lakin əsgərlik elə bir məktəbdir ki, burada digər bütün hissləri bir kənara qoyursan. Vətən sevgisi bütün sevgiləri qabaqlayır. Əsgər yoldaşlarımla da yaxşı dost olmuşam. Komandirlərimiz də bizə doğma münasibət bəsləyir. Tələbkarlıqları ilə yanaşı, qayğılarını da bizdən əsirgəmirlər. Bir sözlə, ailə mühitində xidmət edirik. Hamımız tək yumruq olub yalnız bir amal üçün çalışırıq - hərbi biliklərə dərindən yiyələnmək və ordumuza, dövlətimizə, dövlətçiliyimizə layiqli xidmət etmək.

Gündəlik fəaliyyətimizə gəlincə, onu deyə bilərəm ki, hər gün səhər və axşam idmanla məşğul oluruq. Nahara kimi atəş hazırlığından, taktikadan və digər hərbi fənlərdən dərslər keçirik. Ən maraqlısı da çöl dərslərimiz olur. Tez-tez taktiki atışlar keçiririk. Bütün dərslərə həvəslə yanaşıram, hamısını dərindən öyrənirəm. Nahar etdikdən sonra günün ikinci yarısında sıra hazırlığı, silah-texnikaya qulluq saatlarımız olur. Hər kəs öz silahını sökür, hissə-mexanizmlərini təmizləyir və yağlayır. Ata, mənə təhkim olunan silahımı mükəmməl öyrənmişəm. Vaxtında söküb-yığmağı, təyinatını, xassələrini dərindən bilirəm. Atışlar zamanı da hədəfləri yaxşı nişan alıram. Hər an Ali Baş Komandanın döyüş əmrini gözləyirik ki, düşməni məhv edib torpaqlarımızı işğaldan azad edək. Bunlardan başqa asudə vaxtlarımız da olur. Həmin saatlarda ideoloji sinifdə hərbi jurnallar, qəzetlər oxuyur, tarixi filmlər izləyir, dama və şahmat oynayırıq. Burada yaxşı şahmat oynamağı öyrənmişəm, xidmətimi başa vurub səninlə oynayacam. Ata, ən sevdiyim fəaliyyətlərimizdən biri də axşam yoxlanışında mahnı ilə gəzintidir. Hamımız xorla vətənpərvərlik mahnıları oxuyuruq. Əsgərliyimi bitirəndə ən çox da o mahnıları oxumaq üçün darıxacam. Yadda qalan günlərim o qədərdi ki, bilmirəm hansından danışım. Novruz bayramında komandirlərimizlə əl-ələ verib tonqal ətrafında yallı getdiyimiz, yumurta döyüşdürdüyümüz, istirahət günlərində futbol, voleybol oynadığımız və digər günlərin heç birini unutmayacam. Xidmətimi başa vurub gələndə hamısını daha ətraflı danışacam. Ən yadda qalan, ən qürurlandığım günlərdən biri isə bu yaxınlarda aprel qələbəmizin ildönümünü qeyd etdiyimiz gün oldu. Qəhrəmanlıqları ilə tarix yazan silahdaşlarımızdan bir neçəsi ilə görüşdük. Şəhid olanların ruhunu yad etdik. Biz onların davamçılarıyıq və bu qələbəni yenidən təkrarlamaq üçün hər an hazırıq.

Ana, bilirəm, fikrin hər zaman mənim yanımdadı. Oğlum nə edir, nə yeyir, nə içir? - deyə düşünürsən. Gözün arxada qalmasın. Burada rahat yataq yerimiz, səliqəli geyimlərimiz var. Yeməklərə isə söz ola bilməz. Sənin kimi analar bişirir yeməklərimizi. Həm dadlı, həm də keyfiyyətli hazırlayırlar. Məişət şəraitimiz, təminatımız yüksəkdir. Yataq dəstlərimiz, paltarlarımız hər həftə yuyulmağa aparılır. Tez-tez həkim yoxlanışından da keçirik. Komandanlıq bizə öz övladları kimi qayğı göstərir. Mənim üçün darıxma ana, mən müqəddəs vəzifə yerinə yetirirəm. "Əsgəri xidmət sənin övladlıq borcundur, oğul" demişdin. Var qüvvəmlə, bütün məsuliyyətimlə çalışıram ki, xidmətimi uğurla keçim, ordumuza bacarıqlı əsgər, Vətənimizə layiqli övlad olum.

**Əsgər**
**Kənan ƏLİYEV,**
**"N" hərbi hissəsi**

## Ovqat

# Müqəddəs nəfəs

Göz açdığımız andan, oxuduğumuz məktəbdən, çevrəmizdən bizə öyrədilən ən pak və ülvi duyğulardan biri Vətənə məhəbbətdi, Vətənə sədaqətdi. Vətənə sevginin ölçü vahidi ürəkdi. Bu məhəbbət heç bir qarşılıq güdmədən, ən səmimi sevgidi. Vətənin dağı-daşı da, yolları da bizə doğmadı. Çünki bura Vətən torpağıdı. Başımızın üstündə dalğalanan üçrəngli bayrağımız, azadlığımız, arzularımız yaşayır bu torpaqda.

Biz bir xalq olaraq çox çətin sınaqlardan keçdik. Ən böyük vəhşiliklər, dilə gətirilə bilməyən işgəncələr gördük: 31 Mart soyqırımı, 20 Yanvar faciəsi, Xocalı dəhşətləri... Mənim xalqım, millətim qəsbkar deyil. Özgə torpağına göz dikən ermənilər isə bəşəriyyətin düşmənidi. Xocalıda neçə-neçə azərbaycanlı ailələrin soy-kökünü kəsdilər. Bu qəddarlıqlar Azərbaycan əsgərinin ruhunu sarsıtmadı, əksinə, onun qələbə əzmini kükrətdi. 2016-cı ilin aprel döyüşləri bu kükrəyişin təsdiqi oldu. Hər bir Azərbaycan övladı istənilən an əlinə silah alıb vuruşmağa hazırdır.

Min illərdi torpaq üçün, dövlətçilik üçün şəhid olanların əmanətidir bizlərə bu torpaq. Bizə düşən vəzifə isə onu qorumaq və gələcək nəsillərə ötürməkdir. Dünyaya göz açan hər bir körpəni Vətənə olan hisslər üzərində kökləməliyik.

Belə bir yazı oxumuşdum: komandir şəhidin ailəsinə baş çəkməyə gedir. Onun 5 yaşlı qızı əlində şarını bərk-bərk saxlayır, heç kimə toxunmağa icazə vermir. Komandir uşaqdan bunun səbəbini soruşur. "Atam şişirdib bu şarı, içində onun nəfəsi var" - kəlmələri komandiri varından yox eləyir...

Necə duyğulanmayasan? O uşaq da, o hadisəni eşidənlər də şəhid nəfəsinin müqəddəsliyini əbədiyyən qorumaq üçün yaşayır, şübhəsiz.

Azərbaycan gənci olaraq bayrağımızı, torpağımızı, milli-mənəvi sərvətlərimizi qorumaq bizim borcumuzdur. Şəhidi olmayan torpaq müstəmləkədir. Əgər bir yurd şəhid verirsə, bu ona verilən dəyər və sevgidir. Hər birimiz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların amalını da müqəddəs bilirik, nəfəsini də... Çünki ərazi bütövlüyümüz, onun toxunulmazlığı uğrunda canından keçənləri həmişə sonsuz sevgi, məhəbbət və ehtiramla xatırlayacağıq.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

Gizir Məcidov Rafiq Rasim oğluna 2016-cı ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əhmədov Fuad Cəlal oğluna 2016-cı ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 242
Nüsxə 3525